# **Həftəlik**
# *Bülleten*



**106**
**29 Avqust 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Bakının mərkəzində böyük bir ərazi turizm zonasına çevrilir.**

Bakıda bəzi hissələrinin turizm zonasına çevrilməsi prosesi davam edir. Bir qədər əvvəl Nizami küçəsinə maşınların girişinə qadağa qoyulandan sonra indi də Fəvvarələr meydanı və Qış Parkının arasındakı ərazi də maşından azad zona elan ediləcək. Bakının iki geniş piyada zonası olan Fəvvarələr meydanı və Qış Parkının optimal şəkildə birləşdirilməsi imkanları təhlil olunub və layihə hazırlanıb. Bildirilib ki, yaxın günlərdə şəhər sakinləri və qonaqların ən çox üz tutduğu məkanlardan biri olan İslam Səfərli küçəsi ilə bağlı mütəxəssislər tərəfindən dünya təcrübəsinə əsaslanan layihənin icrasına başlanılacaq: «19–20-ci əsrlərə aid tarixi tikililərin əhatəsində olan İslam Səfərli küçəsi hazırda avtomobil xaosunun mərkəzindədir. İslam Səfərli küçəsində səkilərin dar, piyada axınının isə çox olması səbəbindən bu ərazi faktiki olaraq avtomobilsiz hərəkət iştirakçıları tərəfindən geniş istifadə olunur. Bütün bunları nəzərə alaraq, piyadalar arasında populyar ərazilər olan Qış Parkı və Fəvvarələr Meydanını əlaqələndirmək məqsədilə İslam Səfərli küçəsinin tamamilə piyadalaşdırılması nəzərdə tutulur. Layihə, həmçinin ərazidə mövcud olan ticarət fəaliyyətinin inkişafına şərait yaradacaq, sakinlərin və turistlərin tarixi abidələrə marağını, gəzinti zamanı insanların təhlükəsiziyini artıracaq. İslam Səfərli küçəsinin digər küçələrlə kəsişdiyi yerlərdə avtomobillər üçün xüsusi təhlükəsiz keçidlər yaradılacaq. Bəzi parklanma yerləri əlçatanlıq saxlanılmaqla kəsişən küçələrə köçürüləcək, əlavə yerlər təşkil ediləcək.”



**Azərbaycanda tikinti kərpici istehsalı 8% artıb.**

Bu ilin yanvar-iyul aylarında Azərbaycanda 383,4 min kubmetr tikinti kərpici istehsal edilib.

Bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verilir.

Məlumata görə, 2024-cü ilin eyni dövrünün göstəricisi ilə müqayisədə tikinti şüşəsinin istehsal həcmi 8,3% və ya 29,3 min kubmetr artıb.

Cari ilin avqustun 1-nə hazır məhsul ehtiyatı 10,1 min kubmetr təşkil edib.

Qeyd edək ki, Azərbaycanda tikinti materiallarının istehsalı sahəsində 2025-ci ilin yanvar-iyul aylarında istehsalın ümumi dəyəri 782,9 milyon manat olmaqla, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,8 faiz azalıb.



**Azərbaycanda bentonit istehsalı 58%-dən çox artıb.**

Bu ilin yanvar-iyul ayları ərzində Azərbaycanda 172,7 min ton bentonit istehsal olunub.

Bu barədə Dövlət Statistika Komitəsindən məlumat əldə edilib.

Məlumata görə, bu göstərici 2024-cü ilin eyni dövrü ilə müqayisədə 63,5 min ton və ya 58,2% çoxdur.

Cari ilin avqustun 1-i vəziyyətinə hazır məhsul ehtiyatı 206,3 min ton təşkil edib.

Qeyd edək ki, Azərbaycanda 2025-ci ilin yanvar-aprel ayları ərzində mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 13,1 milyard manat olmaqla, əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,7% azalıb.



**Sənaye məhsulu və xidmətlərinin həcmi yanvar-iyun aylarında 25 milyard manatı ötüb.**

Cari ilin yanvar-iyun aylarında sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 25,3 milyard manat təşkil etmişdir. Bu barədə Bakı şəhər Statistika İdarəsinə istinadən xəbər verilir. Qeyd olunub ki, sənaye məhsulunun 74,5 faizi mədənçıxarma, 22,0 faizi emal, 2,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub. Məlumata əsasən, sənayedə qeyri-dövlət sektorunun payı 81,8 faiz olub. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 89,7 faiz, sənaye xarakterli xidmətlərin göstərilməsi isə 10,3 faiz təşkil edib. "İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilib, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 iyul 2025-ci il vəziyyətinə 459,2 milyon manatlıq hazır məhsul ehtiyatı olub. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 63,2 milyon manat məbləğində digər məhsullar da mövcud olub", - məlumatda qeyd edilib.



**Bakıda inşaat işlərinin 91 faizi qeyri-dövlət sektorunun payına düşüb.**

Bu ilin yanvar-iyun aylarında Bakı şəhərində tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin 86,6 faizini inşaat, yenidənqurma və bərpa, 6,6 faizini əsaslı təmir, 3,5 faizini cari təmir, 3,3 faizini isə sair tikinti işləri təşkil edib.

Bu barədə Bakı şəhər Statistika İdarəsinə istinadən xəbər verilir.

Məlumata görə, ümumi inşaat işlərinin 91,4 faizini qeyri-dövlət tikinti müəssisələri yerinə yetiriblər.

Qeyd edək ki, 2025-ci ilin yanvar-iyul aylarında ölkə üzrə tikinti müəssisələri tərəfindən (fərdi sahibkarlar nəzərə alınmaqla) yerinə yetirilmiş inşaat işlərinin 82,8 faizini inşa, yenidənqurma və bərpa, 8,0 faizini əsaslı təmir, 5,4 faizini cari təmir, 3,8 faizini isə sair tikinti işləri təşkil edib.

Ümumi inşaat işlərinin 88,6 faizini qeyridövlət mülkiyyətində olan tikinti müəssisələri yerinə yetiriblər.



**Bakının hansı rayonunda daha çox yeni ev istifadəyə verilib?**

Bu ilin yanvar-iyun ayları ərzində Bakı şəhərində istifadəyə verilən yaşayış evlərinin ümumi sahəsi 596 327 kvadratmetr təşkil edib. Bakı şəhər Statistika İdarəsinə istinadən verilən məlumata görə, bu, 2024-cü ilin eyni aylarındakı göstərici ilə müqayisədə 91,5% çoxdur. Bakının rayonları üzrə göstəricilərə nəzər salsaq, Binəqədi rayonunda bu ilin ilk 6 ayında 68 886 kv.metr yaşayış sahəsi (5,3 dəfə çox), Xətai rayonunda 86 817 kv.metr yaşayış sahəsi (10,2 dəfə çox), Xəzər rayonunda 143 445 kv.metr yaşayış sahəsi (57,9% çox), Qaradağ rayonunda 18 113 kv.metr yaşayış sahəsi (35,5% çox), Nərimanov rayonunda 24 008 kv.metr yaşayış sahəsi (61,3% çox), Nəsimi rayonunda 836 kv.metr yaşayış sahəsi (28,6% çox), Nizami rayonunda 17 503 kv.metr yaşayış sahəsi (10,1 dəfə çox), Sabunçu rayonunda 127 480 kv.metr yaşayış sahəsi (2,7 dəfə çox), Səbail rayonunda 28 299 kv.metr yaşaış sahəsi (42,9% az), Suraxanı rayonunda 72 309 kv.metr yaşayış sahəsi (2,8% çox), Yasamal rayonunda 5 476 kv.metr (4,8 dəfə çox) yaşayış sahəsi istifadəyə verilib. Əsas kapitala yönəldilmiş vəsaitlərin 2,510 milyard manatı və ya 61,6 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilib. 2025-ci ilin yanvar-iyun aylarında tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin 86,6 faizini inşa, yenidənqurma və bərpa, 6,6 faizini əsaslı təmir, 3,5 faizini cari təmir, 3,3 faizini isə sair tikinti işləri təşkil edib. Ümumi inşaat işlərinin 91,4 faizini qeyri-dövlət tikinti müəssisələri yerinə yetiriblər.



**Qarabağda tikinti sürətlənir: yeni evlərin sahəsi ötən ildən 2,7 dəfə artıb.**

Bu ilin yanvar-iyun ayları ərzində Qarabağ iqtisadi rayonunda istifadəyə verilən yaşayış evlərinin ümumi sahəsi 43 102 kvadrat metr təşkil edib. Dövlət Statistika Komitəsinə istinadən məlumata görə, bu, 2024-cü ilin eyni aylarındakı göstərici ilə müqayisədə 27,3 min kv. metr və ya 2,7 dəfə çoxdur. Qarabağ iqtisadi rayonuna daxil olan Ağcabədi rayonunda bu ilin ilk 6 ayında 13,380 min kv.metr yaşayış sahəsi (2,6 dəfə çox), Ağdam rayonunda 4,702 min kv.metr yaşayış sahəsi (4,6 dəfə çox), Bərdə rayonunda 13,520 min kv.metr yaşayış sahəsi (2,5 dəfə çox), Füzuli rayonunda 5,992 min kv.metr yaşayış sahəsi (2,9 dəfə çox), Tərtər rayonunda 5,508 min kv.metr yaşayış sahəsi (2,5 dəfə çox) istifadəyə verilib. Hesabatda Xankəndi, Ağdərə, Xocalı, Xocavənd və Şuşa rayonlarında istifadəyə verilən yaşayış evlərinin sahəsi üzrə məlumat verilməyib. Cari ilin yanvar-iyun aylarında Qarabağ iqtisadi rayonuna yatırılan 8,579 milyard manatlıq investisiyanın 97,3%-i və ya 8,351 milyard manatı tikinti-quraşdırma işlərinə yönəldilib. Qeyd edək ki, bu ilin ilk 6 ayında Azərbaycanda bütün mülkiyyət növləri üzrə 1,830 milyon kv.metr yaşayış evi istifadəyə verilib ki, bu da bir il öncəki göstəricidən 1,128 milyon kv. metr və ya 2,6 dəfə çoxdur. Bunun 90,2%-ni və ya 1,651 milyon kv.metrni fərdi yaşayış və bağ evləri təşkil edib. Hesabat dövründə istifadəyə verilmiş yaşayış evlərinin 6,645 min kv. Metri dövlət müəssisələri tərəfindən, 1,730 milyon kv.metri isə qeyri-dövlət müəssisələri tərəfindən inşa edilib.



**Hörmətli sahibkarlar!**

14-16 oktyabr tarixlərində Qətərin Doha şəhərində “Big 5 Construct Qatar” tikinti və tikinti materialları sərgisi keçiriləcək.
Sərgidə iştirak sizə yerli alıcılar və gələcək qlobal layihələr üçün məhsul əldə etmək istəyən qurumlarla ilə ünsiyyət qurmaq və əlaqələr yaratmaq üçün uyğun bir platformadır.
Sərgidə ziyarətçi olaraq iştirak etmək arzusunda olan şirkətlər qeyd olunan nömrə ilə əlaqə saxlayıb qeydiyyatdan keçə və ətraflı məlumat əldə edə bilərlər.
Əlaqə üçün: 050 250 95 17

**Hörmətli sahibkarlar!**

24-27 noyabr 2025-ci il tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçiriləcək "Big 5 Global UAE 2025" tikinti və inşaat sənayesi sərgisində vahid ölkə stendində iştirak üçün ixracatçıların müraciətləri qəbul olunur. Sərgi tikinti materialları, avadanlıq və alətlər, keramika və daş, pəncərə texnologiyaları, interyer və təmizləmə materiallarını əhatə edəcək.

Şirkətlər müsabiqə əsasında seçiləcək. Vahid milli stend AZPROMO tərəfindən təşkil olunacaq. Şirkətinizin nüfuzlu tədbirdə iştirak etməsi və vahid milli stenddə məhsullarınızın qlobal bazarda nümayişi üçün bülletenə əlavədəki ərizə formasını və şirkət haqqında ümumi, eləcə də aşağıda göstərilən göstəricilər haqqında məlumatın təqdim olunması xahiş olunur.

- sahibkarın istehsal və ixrac potensialı və əvvəllər ixrac təcrübəsinin olmasına dair sənədlər və ya məlumatlar;
- son birillik dövriyyə və vergi borcu barədə vergi orqanından alınmış arayış və ya arayışlar;
- bank hesabından çıxarış (ərizənin təqdim olunduğu əvvəlki 365 gün ərzində həyata keçirilmiş əməliyyatlar göstərilməklə).

**Son müraciət tarixi: 10 sentyabr**

**Əlavə məlumat üçün: 050 250 95 17**

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: BUILDING A COUNTRY HOUSE 2025**
**Tarixlər: 05 - 07 sentyabr 2025-ci il,**
**Məkan: ExpoForum Konqres və Sərgi Mərkəzi, Sankt-Peterburq (Rusiya)**
Şəhərətrafı mənzil tikintisi, tikinti materialları və mühəndis sistemləri sərgisi.

**Sərginin adı: EGYPT PROJECTS 2025**
**Tarixlər: 06 - 08 sentyabr 2025-ci il,**
**Məkan: EIEC (Misir Beynəlxalq Sərgi Mərkəzi), Qahirə (Misir)**
Beynəlxalq tikinti və tikinti materialları sərgisi. EGYPT PROJECTS Misir və Yaxın Şərqdə tikinti bazarına uyğun məhsul və həllərin tam çeşidini təklif edəcək.

**Sərginin adı: BEDIC - THE BUILDING ENVELOPE DESIGN AND INSULATION CONFERENCE 2025**
**Tarixlər: 08 - 09 sentyabr 2025-ci il,**
**Məkan: Hilton Riyadh Hotel & Residences, Riyad (Səudiyyə Ərəbistanı)**
BEDIC – Bina örtüklərinin layihələndirilməsi və İstilik İzolyasiyası Konfransı Səudiyyə Ərəbistanının unikal tələblərinə uyğun olaraq enerji səmərəliliyini və sakinlərin rahatlığını optimallaşdıran innovativ bina zərfi dizaynları və həllərinə fokuslanır.

**Sərginin adı: IRAQ BUILD EXPO BAGHDAD 2025**
**Tarixlər: 08 - 11 sentyabr 2025-ci il,**
**Məkan: Bağdad Beynəlxalq Sərgi Sahələri, Bağdad (İraq)**
Beynəlxalq Bina, Tikinti, Enerji, Elektrik və Kommunal Avadanlıqlar Sərgisi

**Bakıda bu ərazidə yerləşən binalar söküləcək – ÜNVANLAR**

Ərazi Tikinti-Planlaşdırma Mərkəzi açıq tender elan edir. Elanda Bakı şəhərinin Sabunçu və Suraxanı rayonları ərazisində yerləşən istismar müddəti bitmiş qəzalı binaların söküntü işlərinin təşkilinin layihə-smeta sənədlərinin hazırlanması xidmətinin satın alınması nəzərdə tutulub. Tender çərçivəsində söküntü işləri aparılacaq ünvanlar: Bakı şəhəri, Sabunçu rayonu, Y.Qasımov küçəsi, ev 39, Bakı şəhəri, Sabunçu rayonu, Q.Vəzirov küçəsi, döngə 2, bina 6, Bakı şəhəri, Sabunçu rayonu, Q.Vəzirov küçəsi, döngə 2, bina 5, Bakı şəhəri, Suraxanı rayonu, Xanlar Ələkbərov küçəsi, ev 43

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –
Rüfət Qasımovov, Mühəndis
Email: rufat.qasimov@arxkom.gov.az
Əlaqə telefonu: +994 12 492 31 89 (771)



**İcra Hakimiyyəti yolların təmiri ilə bağlı - TENDER KEÇİRİR**

Abşeron Rayon İcra Hakimiyyəti açıq tender elan edir.
Elanda Abşeron rayonunda yolların əsaslı təmir işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

İsmayıl Əliyev, Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin məsləhətçisi
Email: mail@absheron.gov.az
Əlaqə telefonu: +994 12 310 03 42



**Dövlət qurumu təmir işləri görəcək şirkət axtarır - 9,4 MİLYONLUQ TENDER.**

Təhsil Nazirliyinin Təsərrüfat Hesablı Əsaslı Tikinti və Təchizat İdarəsi açıq tender elan edir.
Elanda Respublikanın bir sıra təhsil müəssisələrinin təmiri və abadlıq işləri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Quliyev Zülfiqar, Baş mütəxəssis
Email : zulfugar.guliyev@etti.edu.gov.az
Əlaqə telefonu: +994 12 465 73 48



**Məktəbləri təmir edəcək şirkət 10 milyon manata yaxın - PUL QAZANACAQ.**

Təhsil Nazirliyinin Təsərrüfat Hesablı Əsaslı Tikinti və Təchizat İdarəsi açıq tender elan edir.
Elanda "Respublika üzrə təhsil müəssisələrində təmir və abadlıq işləri" nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Salahova Nuranə-Gülgün, Baş mütəxəssis
Email : Nurana.Gsalahova@etti.edu.az
Əlaqə telefonu: +994 12 465 73 48



**Ağdamda 53 milyon manata nə tikiləcək? - TENDER, ŞƏRTLƏR.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki "Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti" PHŞ açıq tender elan edir. Elanda Ağdam şəhərinin magistral su xətləri, tullantı və yağış kollektorları ilə qurğularının tikintisinin layihə-smeta sənədləri əsasında tullantı su təmizləmə qurğusunun tikintisi nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Yusif Hüseynov, Planlama və Satınalmaların Təşkili şöbəsi baş məsləhətçi-şöbə müdirinin müavini
Email: yusif.huseynov@toom.gov.az
Əlaqə telefonu: +994 55 225 12 31



**Bu ərazidə sosial evlər tikiləcək, 36 milyonluq layihə başlayır - TENDER**

“MİDA” MMC açıq tender elan edir.

Elanda Abşeron rayonu, Saray qəsəbəsində 4,5 ha torpaq sahəsində 1 və 4 nömrəli 12 mərtəbəli, 2 və 3 nömrəli 16 mərtəbəli çoxmənzilli yaşayış binalarının, həmçinin 14 və 15 nömrəli 1 mərtəbəli qeyri-yaşayış binalarının tikintisi işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Vüqar Təyyar oğlu Əliyev, Sektor müdiri
Email: vugar.aliyev@mida.gov.az
Əlaqə telefonu: +994 12 594 54 01 (239)



